AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI QƏRARI* |
| Qəbul edildiyi tarix | *27.03.2014* |
| Qeydiyyat nömrəsi | *Q-08* |
| Adı | “Sığorta fəaliyyəti sahəsində bir sıra məsələlərin tənzimlənməsi haqqında” |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *08.04..2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *080.010.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201403270008* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *07.04.2014* |

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 806-IVQD nömrəli Qanununun tətbiqi və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 dekabr tarixli 49 nömrəli Fərmanının 4.1.1-ci, 4.1.3-cü, 4.1.4-cü, 4.1.6-cı, 4.1.7-ci, 4.1.8-ci, 4.1.9-cu və 4.1.10-cu yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**QƏ**RARA ALIR:

1. Sığortaçıların rəsmi internet səhifəsi və elektron informasiya sistemi ilə bağlı minimum tələblər təsdiq edilsin (1 nömrəli əlavə).

2. Sığortaçıların birləşməsinə razılıq verilməsi üçün tələb olunan məlumatların, materialların və digər sənədlərin siyahısı təsdiq edilsin (2 nömrəli əlavə).

3. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 78.4-cü maddəsinə uyğun olaraq, sığortaçının Azərbaycan Respublikası Maliyyə Nazirliyinin

Dövlət Sığorta Nəzarəti Xidmətinə təqdim etdiyi maliyyə hesabatlarından başqa aşağıdakı digər hesabatların siyahısı, formaları və dövriliyi təsdiq edilsin:

3.1. Sığorta (təkrarsığorta) əməliyyatları haqqında təcili hesabat (aylıq, rüblük və illik) – Forma № 11 (3 nömrəli əlavə);

3.2. Sığorta müqavilələri haqqında hesabat (rüblük və illik) – Forma № 12 (4 nömrəli əlavə);

3.3. Sığorta (təkrarsığorta) müqavilələri üzrə hesablanmış sığorta (təkrarsığorta) haqları, qaytarılan sığorta (təkrarsığorta) haqları və sığorta ödənişləri haqqında hesabat (rüblük və illik) – Forma № 13 (5 nömrəli əlavə);

3.4. Sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları haqqında hesabat (rüblük və illik) – Forma № 14 (6 nömrəli əlavə);

3.5. Təkrarsığorta əməliyyatları haqqında hesabat (rüblük və illik) – Forma № 15 (7 nömrəli əlavə);

3.6. Sığortaçının (təkrarsığortaçının) təkrarsığorta etdirdiyi risklər üzrə hesablanmış təkrarsığorta haqları haqqında hesabat (rüblük və illik) – Forma № 16 (8 nömrəli əlavə);

3.7. İcbari sığortalar haqqında hesabat (rüblük və illik) – Forma № 17 (9 nömrəli əlavə);

3.8. Dövlət müəssisələri ilə bağlanmış sığorta müqavilələri üzrə hesablanmış sığorta haqları, qaytarılan sığorta haqları və verilmiş sığorta ödənişləri haqqında hesabat (rüblük və illik) – Forma № 18 (10 nömrəli əlavə);

3.9. İşlərin aparılmasi xərcləri haqqında hesabat (rüblük və illik) – Forma № 19 (11 nömrəli əlavə);

3.10. Sığorta nəzarətinin həyata keçirilməsinin əlavə maliyyələşdirilməsi üzrə məcburi ayırmalar haqqında hesabat (rüblük və illik) – Forma № 20 (12 nömrəli əlavə);

3.11. Sığorta vasitəçilərinə hesablanmış komisyon muzdlar haqqında hesabat (rüblük və illik) – Forma № 21 (13 nömrəli əlavə);

3.12. Sığorta brokerinin fəaliyyəti haqqında hesabat (rüblük və illik) – Forma № 22 (14 nömrəli əlavə);

3.13. Sığortaçı (təkrarsığortaçı) və hüquqi şəxs sığorta brokerinin bəzi göstəriciləri haqqında hesabat (rüblük və illik) – Forma № 23 (15 nömrəli əlavə);

3.14. Sığortaçının (təkrarsığortaçının) səhmdarları və onların (səhmdarların) nizamnamə kapitalinda iştirak edən şəxslər haqqında hesabat (rüblük və illik) – Forma № 23/1 (16 nömrəli əlavə).

4. Aktuar hesablamaların aparılmasına dair təlimat təsdiq edilsin (17 nömrəli əlavə).

Aktuari şəhadətnaməsinin forması və doldurulması qaydası təsdiq edilsin (18 nömrəli əlavə).

6. Sığorta vasitəçiliyi fəaliyyəti üzrə lisenziya verilməyən, hüquqi şəxs olan sığorta brokerinin səhmdarı və ya iştirakçısı ola bilməyən, sığorta əməliyyatlarına nəzarət etmək, istiqamətləndirmək və ya cəlb etmək üçün məcbur etmə, təzyiq və ya təsir göstərmə imkanı verən mövqeyə malik olan şəxslərin kateqoriyası müəyyən edilsin (19 nömrəli əlavə).

7. Fiziki şəxs olan sığorta agentinin fəaliyyəti barədə rüblük hesabatın forması təsdiq edilsin (20 nömrəli əlavə).

8. Sığorta brokerinin peşə məsuliyyətinin sığortası üzrə sığorta məbləği aşağıdakı kimi müəyyən edilsin:

8.1. fiziki şəxs olan sığorta brokerlərinin peşə məsuliyyətinin sığortası üzrə - 200 000 (iki yüz min) manat;

8.2. hüquqi şəxs olan sığorta brokerlərinin peşə məsuliyyətinin sığortası üzrə - 1 000 000 (bir milyon manat).

9. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinə sığorta bazarının peşəkar iştirakçıları tərəfindən təqdim edilməli olan hesabatların siyahısının, formalarının və dövriliyinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2010-cu il 24 dekabr tarixli İ-216 nömrəli əmrinin 1-ci hissəsi ləğv edilsin.

10. Nazirliyin Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinə və Dövlət Sığorta Nəzarəti Xidmətinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər və bu qərardan irəli gələn digər məsələləri həll etsinlər.

11. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Kollegiyanın sədri,
Azərbaycan Respublikasının
maliyyə naziri

Samir Şərifov

Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin Kollegiyasının
“27” mart 2014-cü il tarixli
Q-08 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

*1 nömrəli əlavə*

# Sığortaçıların rəsmi internet səhifəsi və elektron informasiya sistemi ilə bağlı minimum tələblər

## 1. Ümumi müddəalar

Sığortaçıların rəsmi internet səhifəsi və elektron informasiya sistemi ilə bağlı minimum tələblər (bundan sonra - Tələblər) “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 806-IVQD nömrəli Qanununun tətbiqi və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 dekabr tarixli 49 nömrəli Fərmanının 4.1.1-ci yarımbəndinin icrası məqsədilə hazırlanmışdır və sığortaçıların rəsmi internet səhifəsi və elektron informasiya sistemi ilə bağlı minimum tələbləri müəyyən edir.

## 2. Sığortaçıların rəsmi internet səhifəsi ilə bağlı minimum tələblər

2.1. Sığortaçının rəsmi internet səhifəsində:

2.1.1. “Ana səhifədə” sığortaçının əlaqə məlumatları əks etdirilməlidir.

2.1.2. Sığortaçının baş ofisinin, filial və nümayəndəliklərinin ünvanı, telefon nömrəsi və elektron poçt ünvanı olmalıdır.

2.1.3. Sığortaçının rəhbər işçiləri barədə məlumatlar (soyadı, adı və atasının adı, həmçinin tutduğu vəzifə) yerləşdirilməlidir.

2.1.4. “PDF” formatında yüklənmə və mətn üzrə axtarış imkanlarına malik olan, sığortaçının bütün sığorta qaydaları aydın görünən siyahı üzrə yerləşdirilməlidir.

2.1.5. sığorta hadisəsi hesab edilə bilən hal və ya hadisə barədə məlumat və həmin məlumatın qəbul edilməsini təsdiq edən avtomatik cavab məktubu göndərmək imkanı verən, hər bir sığorta növü üzrə sığorta hadisəsi barədə spesifik suallardan ibarət sorğu bölməsi mövcud olmalıdır.

2.1.6. Sığortaçıdan və ya onun hər hansı əməkdaşından şikayət verilməsi prosedurunu əks etdirən məlumatlar, həmçinin şikayətlərə görə məsul olan vəzifəli şəxsin telefon nömrəsi və elektron poçt ünvanı yerləşdirilməli, şikayətin elektron qaydada verilməsi və həmin şikayətin qəbul edilməsini təsdiq edən avtomatik cavab məktubu göndərmək imkanına malik olan müstəqil bölmə mövcud olmalıdır.

2.1.7. “PDF” formatında yüklənmə imkanına malik olan, sığortaçının maliyyə hesabatları yerləşdirilməlidir.

2.2. Bu Tələblərin 2.1-ci bəndində göstərilən məlumatlar sığortaçının internet səhifəsində elə yerləşdirilməlidir ki, sığortalıların, sığorta olunanların və ya faydalanan şəxslərin həmin məlumatlara asanlıqla çıxış imkanları olsun və onlardan asanlıqla istifadə edə bilsinlər.

## 3. Sığortaçıların elektron informasiya sistemi ilə bağlı minimum tələblər

3.1. Sığortaçının elektron informasiya sistemi ən azı aşağıdakı məlumatları özündə ehtiva etməlidir:

3.1.1. Bağladığı hər bir sığorta və təkrarsığorta müqaviləsi üzrə:

3.1.1.1. sığortalının (təkrarsığortalının) adı;

3.1.1.2. həyat sığortası müqavilələri üzrə sığorta olunanın cinsi və doğum tarixi;

3.1.1.3. sığortanın növü və sinifi;

3.1.1.4. müqavilənin nömrəsi;

3.1.1.5. müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;

3.1.1.6. sığorta predmetlərinin sayı;

3.1.1.7. sığorta (təkrarsığorta) məbləği;

3.1.1.8. sığorta tarifi;

3.1.1.9. sığorta haqqının məbləği;

3.1.1.10. sığorta haqqının hissə-hissə ödənilməsi nəzərdə tutulan müqavilələrdə - hər ödəmənin məbləği və ödənilmə tarixi;

3.1.1.11. faktiki ödənilmiş sığorta haqqının məbləği və ödənilmə tarixi;

3.1.1.12. sığorta müqaviləsinin bağlanmasında sığorta vasitəçisinin iştirakı olduğu halda onun adı və lisenziyasının nömrəsi;

3.1.1.13. sığorta vasitəçisinə ödənilməli olan komisyon muzdun məbləği;

3.1.1.14. təkrarsığortaçının və təkrarsığorta brokerinin adı;

3.1.1.15. təkrarsığorta müqaviləsinin nömrəsi;

3.1.1.16. təkrarsığortçıya ötürülmüş öhdəliyin məbləği;

3.1.1.17. təkrarsığorta haqqının məbləği;

3.1.1.18. təkrarsığorta komissiyasının məbləği.

3.1.2. Tənzimlənmiş və tənzimlənməmiş zərərlər üzrə:

3.1.2.1. sığorta hadisəsinin baş verdiyi tarix;

3.1.2.2. sığorta hadisəsinin qeydiyyat tarixi;

3.1.2.3. sığortalının adı;

3.1.2.4. faydalanan şəxsin adı;

3.1.2.5. sığorta (təkrarsığorta) müqaviləsinin nömrəsi;

3.1.2.6. sığortanın sinfi və növü;

3.1.2.7. sığorta müqaviləsinin qüvvədə olma müddəti;

3.1.2.8. gözlənilən ödəniş məbləği;

3.1.2.9. tənzimləmə xərcləri;

3.1.2.10. qiymətləndirməyə əsasən zərər məbləği;

3.1.2.11. sığorta ödənişinin verilməsindən imtinanın səbəbləri, imtina məktubunun tarixi və nömrəsi;

3.1.2.12. müqavilə üzrə sığorta (təkrarsığorta) məbləği;

3.1.2.13. müqavilə üzrə azadolma məbləği;

3.1.2.14. sığorta ödənişində təkrarsığortaçının payı;

3.1.2.15. təkrarsığortaçının adı;

3.1.2.16. təkrarsığorta müqaviləsinin nömrəsi;

3.1.2.17. hesablanmış sığorta ödənişinin məbləği;

3.1.2.18. sığorta ödənişinin məbləği və verildiyi tarix;

3.1.2.19. subroqasiya hüququ əsasında geri alınmış məbləğ.

3.2. Həyat sığortası sahəsində fəaliyyət göstərən sığortaçıların (təkrarsığortaçıların) elektron informasiya sistemi bu Tələblərin 2.1-ci bəndində nəzərdə tutulanlardan başqa sığorta olunanlara borcların verilməsi və sığorta olunanların sığortaçının investisiya gəlirlərində iştirakı üzrə əməliyyatların uçotunu təmin etməlidir.

3.3. Elektron informasiya sistemində "Sığorta (təkrarsığorta) müqavilələrinin uçotu jurnalı"nı və "Zərərlərin uçotu jurnalı"nı avtomatik qaydada formalaşdırmaq imkanları təmin edilməlidir.

3.4. Elektron informasiya sistemində daxil edilən məlumatların tamlığına nəzarət funksiyası nəzərdə tutulmalıdır (tələb olunan məlumatların tam şəkildə daxil edilmədiyi halda proqram müvafiq əməliyyatı yerinə yetirməkdən imtina etməli və bu barədə bildiriş verməlidir).

3.5. Elektron informasiya sisteminin fövqəladə hallarda etibarlı və davamlı fəaliyyətini təmin etmək məqsədilə verilənlər bazasının və əməliyyatlar jurnalının ehtiyat surəti əsas serverin yerləşdiyi yerdən kənarda yerləşən əlavə serverdə saxlanılmalıdır.

3.6. Elektron informasiya sistemində həmin sistemə gələcəkdə digər funksiyaların əlavə olunması, həmçinin kənar informasiya sistemləri, o cümlədən sığorta nəzarəti orqanının informasiya sistemi ilə inteqrasiya oluna bilməsi imkanları təmin edilməlidir.

3.7. İstifadəçilərin elektron informasiya sisteminə daxil olması onlara həmin sistemdə səlahiyyətlərin verilməsi mexanizmləri ilə məhdudlaşdırılmalıdır.

## 4. Minimum tələblərin qüvvəyə minməsi

Bu Tələblərin 2-ci hissəsində nəzərdə tutulan minimum tələblər 2014-cü ilin 01 iyul tarixindən, 3-cü hissəsində nəzərdə tutulan minimum tələblər isə 2015-ci ilin 01 yanvar tarixindən qüvvəyə minir.

Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin Kollegiyasının
“27” mart 2014-cü il tarixli
Q-08 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

*2 nömrəli əlavə*

## Sığortaçıların birləşməsinə razılıq verilməsi üçün tələb olunan məlumatların, materialların və digər sənədlərin

## Siyahısı

### 1. Ümumi müddəalar

Sığortaçıların birləşməsinə razılıq verilməsi üçün tələb olunan məlumatların, materialların və digər sənədlərin Siyahısı “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 806-IVQD nömrəli Qanununun tətbiqi və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 dekabr tarixli 49 nömrəli Fərmanının 4.1.3-cü bəndinin icrası məqsədi ilə hazırlanmışdır və sığortaçıların birləşməsinə razılıq verilməsi üçün tələb olunan məlumatların, materialların və digər sənədlərin siyahısını müəyyən edir.

### 2. Sığortaçıların və təkrarsığortaçıların birləşməsinə razılıq verilməsi üçün tələb olunan məlumatlar

2.0. Sığortaçıların və təkrarsığortaçıların birləşməsi üçün aşağıdakı məlumatlar sığorta nəzarəti orqanına təqdim edilməlidir:

2.0.1. Birləşən sığortaçıların və ya təkrarsığortaçıların hər birinin ayrı-ayrılıqda bağlamış olduğu və birləşmə üçün müraciət edilən tarixə qüvvədə olan sığorta və (və ya) təkrarsığorta müqavilələrinin sayı (fiziki şəxslərlə bağlanmış sığorta müqavilələri ayrıca göstərilməklə);

2.0.2. Birləşən sığortaçıların və ya təkrarsığortaçıların hər birinin ayrı-ayrılıqda bağladıqları, birləşmə üçün müraciət edilən tarixə qüvvədə olan sığorta müqavilələri üzrə sığorta (təkrarsığorta) haqlarının məbləği;

2.0.3. Birləşən sığortaçıların və ya təkrarsığortaçıların son 3 il ərzində (3 ildən az

müddətə fəaliyyət göstəribsə, fəaliyyət göstərdiyi müddət üzrə) öz aralarındakı işgüzar münasibətlər barədə məlumat.

## 3. Sığortaçıların və təkrarsığortaçıların birləşməsinə razılıq verilməsi üçün tələb olunan materiallar və digər sənədlər

3.0. Sığortaçıların və təkrarsığortaçıların birləşməsi üçün aşağıdakı materiallar və digər sənədləri sığorta nəzarəti orqanına təqdim edilməlidir:

3.0.1. Birləşən sığortaçıların və ya təkrarsığortaçıların son 3 il ərzində (3 ildən az müddətə fəaliyyət göstəribsə, fəaliyyət göstərdiyi müddət üzrə) öz aralarındakı işgüzar münasibətlərlə bağlı bağladıqları əqdlərin siyahısı;

3.0.2. Birləşən sığortaçıların və ya təkrarsığortaçıların son 3 maliyyə ili ərzindəki (3 ildən az müddətə fəaliyyət göstəribsə, fəaliyyət göstərdiyi müddət üzrə) ümumiləşdirilmiş maliyyə hesabatları;

3.0.3. Birləşən sığortaçıların və ya təkrarsığortaçıların hər birinin ayrı-ayrılıqda hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı.

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*3 nömrəli əlavə*

Forma № 11

SIĞORTA (TƏKRARSIĞORTA) ƏMƏLİYYATLARI HAQQINDA TƏCİLİ HESABAT (aylıq, rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı: ________________________________________

Hesabat dövrü ____________________________________ il
*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Göstəricilər | Hesablanmış sığorta (təkrarsığorta) haqları |
|---|---|
| 1 | 2 |
| Sığorta haqları hesablanmışdır- cəmi : | |
| o cümlədən könüllü sığortalar üzrə - cəmi : | |
| Həyat sığortası üzrə | |
| o cümlədən : | |
| | |
| Qeyri-həyat sığortası üzrə | |
| o cümlədən : | |
| | |
| Şəxsi sığorta | |
| o cümlədən : | |
| | |
| Əmlak sığortası | |
| o cümlədən : | |
| | |
| İcbari sığortalar üzrə -cəmi | |
| o cümlədən : | |
| | |
| Sığorta ödənişləri - cəmi : | |
| o cümlədən könüllü sığortalar üzrə - cəmi : | |
| Həyat sığortası üzrə | |
| o cümlədən : | |
| | |
| Qeyri-həyat sığortası üzrə | |
| o cümlədən : | |
| Şəxsi sığorta | |
| o cümlədən : | |
| | |
| Əmlak sığortası | |
| o cümlədən : | |
| | |
| İcbari sığortalar üzrə -cəmi | |
| o cümlədən : | |

| | |
|---|---|
| | |

Qeyd: *Hesabat sığortaçılar (təkrarsığortaçılar) tərəfindən hesabat dövründən sonrakı ayın 10-a qədər təqdim edilməlidir.*

İdarə heytinin sədri ____________________

M.Y.

Baş mühasib ____________________

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin Kollegiyasının
"27" mart 2014-cü il tarixli
Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.
*4 nömrəli əlavə*

Forma **№** 12

## SI**Ğ**ORTA MÜQAVIL**Ə**L**Ə**RI HAQQINDA HESABAT (rüblük və illik)

*ilin əvvəlindən artan yekunla*

(manatla)

| **Sığ**ortan**ı**n sinifl**ə**ri | Müqavil**ə**l**ə**rin say**ı** | | | **Sığ**orta predmetl**ə**rinin say**ı** | | | Ümumi **sığ**orta riski | Orta s**ığ**orta riski | | Hesablan**mış** **sığ**orta haqlar**ı** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *Cəmi* | *o cümlədən* | | *Cəmi* | *o cümlədən* | | | *Bir müqavilə üzrə* | *Bir predmet üzrə* | |
| | | *fiziki şəxslər üzrə* | *hüquqi şəxslər üzrə* | | *fiziki şəxslər üzrə* | *hüquqi şəxslər üzrə* | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | | | 6 | 7 | 8 | 9 |
| **Hə**yat s**ığ**ortas**ı** | | | | | | | | | | |
| o cümlədən | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| Qeyri-h**ə**yat s**ığ**ortas**ı** | | | | | | | | | | |
| o cümlədən | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| **Şə**xsi s**ığ**orta | | | | | | | | | | |
| o cümlədən | | | | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| Əmlak sığortası | | | | | | | | | | |
| o cümlədən | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| o cümlədən | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| İcbari sığorta | | | | | | | | | | |
| o cümlədən | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| **Cəmi** | | | | | | | | | | |

İdarə heyətinin sədri: ____________________

M.Y.

Baş mühasib : ____________________

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27"mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*5 nömrəli əlavə*

Forma № 13

## SIĞORTA (TƏKRARSIĞORTA) MÜQAVILƏLƏRI üzrə HESABLANMIŞ SIĞORTA (TƏKRARSIĞORTA) HAQLARI, QAYTARILAN SIĞORTA (TƏKRARSIĞORTA) HAQLARI və SIĞORTA ÖDƏNIŞLƏRI HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı: ____________________________________________

Hesabat dövrü ______________________
*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Sığortanın sinifləri | İlin əvvəlindən sığorta (təkrarsığorta) haqları hesablanmışdır | | | İlin əvvəlindən qaytarılmış sığorta (təkrarsığorta) haqları | | | Qalıq | | | İlin əvvəlindən hesablanmış sığorta ödənişləri | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | cəmi | o cümlədən | | cəmi | o cümlədən | | cəmi | o cümlədən | | sığorta hadisələrinin sayı | cəmi | o cümlədən | |
| | | fiziki şəxslər | hüquqi şəxslər | | fiziki şəxslər | hüquqi şəxslər | | fiziki şəxslər | hüquqi şəxslər | | | fiziki şəxslər | hüquqi şəxslər |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| Həyat sığortası | | | | | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| Qeyri-həyat sığortası | | | | | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | | | | | |
| Şəxsi sığorta | | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | | |
| Əmlak sığortası | | | | | | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| İcbari sığorta | | | | | | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| Y E K U N | | | | | | | | | | | | | | |

Qeyd: Qaytarılan sığorta (təkrarsığorta) haqları dedikdə, sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi və ya onların şərtlərinin dəyişdirilməsi nəticəsində qaytarılmış və (və ya) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarının cəmi başa düşülür.

İdarə heyətinin sədri ____________________________

M.Y.

Baş mühasib : ____________________________

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*6 nömrəli əlavə*

Forma **№** 14

## SI**Ğ**ORTA və T**Ə**KRARSI**Ğ**ORTA MÜQAV**İLƏLƏRİ** üzrə ALINMALI OLAN SI**Ğ**ORTA və T**Ə**KRARSI**Ğ**ORTA HAQLARI HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı: ____________________________________________

Hesabat dövrü __________________________

(manat)

| **Sıra №-si** | **Sığorta sinifinin adı** | **Sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları** | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **Cəmi** | *o cümlədən* | | | | | |
| | | | Birbaşa sığorta üzrə | | | **Təkrarsığortalılar üzrə** | | |
| | | | **Cəmi** | *o cümlədən* | | **Cəmi** | *o cümlədən* | |
| | | | | **Sığortalılardan** birbaşa alınmalı olan | **Sığorta** vasitəçilərindən alınmalı olan | | **Təkrarsığortalılardan** birbaşa alınmalı olan | **Sığorta** brokerlərindən alınmalı olan |
| 1 | | | | | | | | |
| 2 | | | | | | | | |
| 3 | | | | | | | | |
| ... | | | | | | | | |
| ... | | | | | | | | |
| ... | YEKUN | | | | | | | |

İdarə heyətinin sədri ______________________________

M.Y.

Baş mühasib : ______________________________

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq*
*edilmişdir. 7 nömrəli əlavə*

Forma № 15

Sığortaçının (təkrarsığortaçının) adı: ________________________________________

Hesabat dövrü _________________________

*ilin əvvəlindən artan yekunla*

## TƏKRARSIĞORTA ƏMƏLİYYATLARI HAQQINDA HESABAT (rüblük və illik)

| I. Təkrarsığortaya ötürülmüşdür | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sığortanın sinifi | Təkrarsığortaçının adı | Təkrarsığortaçının rezidenti olduğu ölkənin adı | Sığorta (təkrarsığorta) brokerinin adı | Təkrarsığorta müqaviləsinin forması | Təkrarsığortaya verilmiş sığorta (təkrarsığorta) müqavilələrinin sayı | Təkrarsığortaya verilmiş sığorta (təkrarsığorta) müqavilələri üzrə ümumi | Təkrarsığortaya verilmiş sığorta (təkrarsığorta) müqavilələri üzrə ümumi | Təkrarsığortalının payı | | Təkrarsığortaçının payı | | | | Komisyon muzd | | Sığorta ödənişi | | | |
| | | | | | | | | Sığorta riski | Sığorta haqqı | Sığorta riski | | Hesablanmış təkrarsığorta haqqı | | *Daxildən* | *Xaricdən* | Cəmi | o cümlədən: | | |
| | | | | | | | | | | | | | | | | | Təkrarsığortalının payı | Təkrarsığortaçının payı | |
| | | | | | | | | | | *Daxilə* | *Xaricə* | *Daxilə* | *Xaricə* | | | | | Daxili | Xarici |

| | | | | | | **sığ**orta riski | **sığ**orta haqqı | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | | | | | | | |
| Aralıq yekun | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | | | | | | | |
| Aralıq yekun | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | | | | | | | |
| Aralıq yekun | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | | | | | | | |
| **CƏMİ** | | | | | | | | | | | | | | | | | | | |

II. Təkrarsı**ğ**ortaya qəbul edilmi**ş**dir

| **Sığ**orta (təkrarsı**ğ**orta) brokerinin ad**ı** | **T**əkrarsı**ğ**orta müqavilə-sinin formas**ı** | **Təkrarsığ**ortaya **q**əbul edilmi**ş** **sığ**orta (təkrarsı**ğ**orta) müqavil**ə**lərinin say**ı** | **Sığ**orta riski | | Hesablanmı**ş** **t**əkrarsı**ğ**orta haqq**ı** | | Komisyon muzd | | **Sığ**orta ödəni**ş**i | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | o cümlədən : | |
| | | | *Daxildən* | *Xaricdən* | *Daxildən* | *Xaricdən* | *Daxil***ə** | *Xaric***ə** | **C**əmi | Daxilə | Xaricə |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |

İdarə heyətinin sədri ______________________________

M.Y.

Baş mühasib : ______________________________

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*8 nömrəli əlavə*

Forma № 16

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) TƏKRARSIĞORTA ETDİRDİYİ RİSKLƏR üzrə HESABLANMIŞ TƏKRARSIĞORTA HAQLARI HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı: ____________________________________

Hesabat dövrü __________________________
*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Kodu | Təkrar-sığortaçının adı | Təkrarsığortaçının rezedenti olduğu ölkənin adı | Təkrar-sığortaçının reytinqi | Təkrarsığortaçının reytinqi üzrə aid olduğu qrup | Hesablanmış təkrarsığorta haqqı |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | **Cəmi** | | | | |

İdarə heyətinin sədri ________________________

M.Y.

Baş mühasib ______________________

Forma № 17

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq*
*edilmişdir. 9 nömrəli əlavə*

# İCBARI SIĞORTALAR HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı ______________________

Hesabat dövrü ______________________________
(ilin əvvəlindən artan yekunla)

*manatla*

| Sıra sayı | Sığorta siniflərinin adı | Sığorta (təkrarsığorta) müqavilələrinin sayı | Hesablanmış sığorta (təkrarsığorta) haqları | Sığorta hadisələrinin sayı | Sığorta ödənişləri | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Əmlaka dəyən zərərlər üzrə | Səhhətə dəyən zərərlər üzrə | | | | | | | | | | | | Ətraf mühitə dəyən zərərlər üzrə |
| | | | | | | Ölüm | | I qrup əlillik | | II qrup əlillik | | III qrup əlillik | | Ağır xəsarət | | Yüngül xəsarət | | |
| | | | | | | sayı | sığorta ödənişi | sayı | sığorta ödənişi | sayı | sığorta ödənişi | sayı | sığorta ödənişi | sayı | sığorta ödənişi | sayı | sığorta ödənişi | |
| 1 | | | | | | | | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | | | | | | | | |
| 3 | | | | | | | | | | | | | | | | | | |
| 4 | | | | | | | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 5 | | | | | | | | | | | | | | | | | | |
| 6 | | | | | | | | | | | | | | | | | | |
| 7 | | | | | | | | | | | | | | | | | | |
| 8 | | | | | | | | | | | | | | | | | | |
| 9 | | | | | | | | | | | | | | | | | | |
| 10 | | | | | | | | | | | | | | | | | | |
| 11 | | | | | | | | | | | | | | | | | | |
| 12 | | | | | | | | | | | | | | | | | | |
| 13 | | | | | | | | | | | | | | | | | | |
| 14 | | | | | | | | | | | | | | | | | | |
| 15 | | | | | | | | | | | | | | | | | | |
| 16 | | | | | | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | | | | | | |
| | **CƏMİ** | | | | | | | | | | | | | | | | | |

İdarə heyətinin sədri: ______________________________

M.Y.

Baş mühasib: ______________________________

Forma № 18

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*10 nömrəli əlavə*

## DÖVLƏT MÜƏSSISƏLƏRİ ilə BAĞLANMIŞ SIĞORTA MÜQAVİLƏLƏRİ üzrə HESABLANMIŞ SIĞORTA HAQLARI, QAYTARILAN SIĞORTA HAQLARI və VERİLMİŞ SIĞORTA ÖDƏNİŞLƏRİ HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı: ______________________________

Hesabat dövrü ______________________________

*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Sığortanın sinifləri | Hesablanmış sığorta haqları | Qaytarılan sığorta haqları | Qalıq | Verilmiş sığorta ödənişi |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| Həyat sığortası | | | | |
| o cümlədən | | | | |
| | | | | |
| Qeyri-həyat sığortası | | | | |
| o cümlədən | | | | |
| | | | | |
| Şəxsi sığorta | | | | |
| o cümlədən | | | | |
| | | | | |
| Əmlak sığortası | | | | |
| o cümlədən | | | | |
| | | | | |
| İcbari sığorta | | | | |
| o cümlədən | | | | |
| | | | | |

| Y E K U N | | | | |
|---|---|---|---|---|

Qeyd 1. Qaytarılan sığorta (təkrarsığorta) haqları dedikdə, sığorta (təkrarsığorta) müqavilələrinə vaxtından əvvəl xitam verilməsi və ya onların şərtlərinin dəyişdirilməsi nəticəsində qaytarılmış və (və ya) qaytarılmalı olan sığorta (təkrarsığorta) haqlarının cəmi başa düşülür.
Qeyd 2. Dövlət müəssisəsi dedikdə tamamilə dövlət mülkiyyətində olan, səhmlərinin (paylarının) və ya əmlakının 2/3 hissəsindən çoxu birbaşa və dolayısı dövlətə məxsus olan hüquqi şəxslər başa düşülür.

İdarə heyətinin sədri ________________________

M.Y.

Baş mühasib: ________________________

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27"mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*11 nömrəli əlavə*

Forma № 19

İŞLƏRİN APARILMASI XƏRCLƏRİ HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) və ya hüquqi şəxs sığorta brokerinin adı:

______________________________ ______________________________

______________________________

Hesabat dövrü ______________________________

*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Sətrin №-si | XƏRC MADDƏLƏRİNİN ADLARI | Xərclənmişdir |
|---|---|---|
| 1 | 2 | 3 |
| | Əmək haqqı - cəmi | |
| | o cümlədən : | |
| | a) ştat işçilərinə əmək haqqı - cəmi | |
| | o cümlədən : | |
| | | |
| | b) siyahıdankənar tərkibli işçilərə əmək haqqı - cəmi | |
| | Sığorta vasitəçilərinə komisyon muzdlar - cəmi | |
| | | |
| | Təkrarsığortalılara hesablanmış komisyon muzdlar | |
| | Dövlət sosial müdafiə fonduna ayırmalar | |
| | Təsərrüfat xərcləri | |
| | Dəftərxana xərcləri | |
| | Ezamiyyə xərcləri - cəmi | |
| | o cümlədən | |
| | | |
| | Bank xidməti xərcləri | |
| | Məsləhət xidmətləri | |
| | Reklam işinin aparılmasına xərclər | |
| | Amortizasiya ayırmaları | |
| | Əsas vəsaitlərin təmiri üzrə xərclər | |
| | İşçilərin ixtisasının artırılmasına çəkilmiş xərclər | |
| | Nümayəndəlik xərcləri | |
| | Sair xərclər - cəmi | |
| | o cümlədən | |
| | - | |
| | Y E K U N: | |

Rəhbər ______________________________

Baş mühasib ______________________________

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*12 nömrəli əlavə*

Forma № 20

SIĞORTA NƏZARƏTİNİN HƏYATA KEÇİRILMƏSİNİN ƏLAVƏ MALİYYƏLƏŞ-
DİRİLMƏSİ üzrə MƏCBURİ AYIRMALAR HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) adı:_____________

Hesabat dövrü ________________________

| Daxil olmuş sığorta haqqları | Xaricdən alınmış təkrarsığorta haqqları | Qaytarılmış sığorta haqları və xaricdən alınmış təkrarsığorta haqlarının qaytarılmış hissəsi | Köçürmə üçün baza məbləği (süt.1+süt.2 -süt.3) | Sığorta nəzarəti orqanına hesablanmış məbləğ (süt.4 x 0,3%) |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | | | | |
| | | | | |
| | | | | |

Qeyd: Məcburi ayırmalar üzrə hesablaşmaların vəziyyəti (hesabat verildiyi ayın 20-dək) :

___________ (-)
borc

___________ (+)
artıq

Hesabat dövrünün yekunu üzrə köçürülmüş məbləğ : _______________
(yazı ilə)

İdarə heyətinin sədri _________ ______________
(s.a.a.) (imza)
(imza)

M.Y.

Baş mühasib ___________ ____________
(s.a.a.) (imza)
(imza)

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının "27"*
*mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*13 nömrəli əlavə*

Forma № 21

## SIĞORTA VASİTƏÇİLƏRİNƏ HESABLANMIŞ KOMİSYON MUZDLAR HAQQINDA HESABAT (rüblük və illik)

*ilin əvvəlindən artan yekunla*

| Sığorta siniflərinin adı | Hesablanmış sığorta (təkrarsığorta) haqları | Sığorta agentlərinə hesablanmış komisyon muzdlar | | | | | Sığorta brokerlərinə hesablanmış komisyon muzdlar | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən | | | | Cəmi | o cümlədən | |
| | | | Fiziki şəxslərə | Hüquqi şəxslərə | | | | Fiziki şəxslərə | Hüquqi şəxslərə |
| | | | | Cəmi | o cümlədən | | | | |
| | | | | | müstəsna olaraq sığorta agenti fəaliyyəti ilə məşğul olanlara | digər fəaliyyətlə məşğul olanlara | | | |
| Həyat sığortası üzrə | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| Qeyri-həyat sığortası üzrə | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | |
| Şəxsi sığorta | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| Əmlak sığortası | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| İcbari sığorta | | | | | | | | | |
| o cümlədən : | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| Y E K U N : | | | | | | | | | |

İdarə heyətinin sədri ____________________

Baş mühasib : ____________________ M.Y.

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*14 nömrəli əlavə*

Forma № 22

SIĞORTA BROKERİNİN FƏALİYYƏTİ HAQQINDA HESABAT (rüblük və illik)

Sığorta brokerinin adı ____________________________

Hesabat dövrü ______________________________
*ilin əvvəlindən artan yekunla*

*manatla*

| S.s | Sığorta (təkrarsığorta) müqaviləsi bağlanılmış sığortaçının (təkrarsığortaçının) və digər müqavilə bağlanılmış şəxslərin adı | Sığortanın sinifləri | Əməliyyatın adı | | Brokerin vasitəçiliyi ilə bağlanılmış müqavilələr üzrə | | | Komisyon muzdlar və digər gəlirlər | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Sığorta müqavilələri (müddəti) | Təkrarsığorta müqavilələri (müddəti) | Sığorta məbləği | Hesablanmış sığorta (təkrarsığorta) haqları | Alınmalı olan sığorta (təkrarsığorta) haqları | CƏMİ | o cümlədən | |
| | | | | | | | | | vasitəçilik xidmətləri üzrə | digər xidmətlər üzrə |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| *1* | | | | | | | | | | |
| *2* | | | | | | | | | | |
| *3* | | | | | | | | | | |
| ... | **Cəmi** | | | | | | | | | |

**Rəhbər** (sığorta brokeri) ___________________________

M.Y.

Baş mühasib ______________________________________

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq edilmişdir.*
*15 nömrəli əlavə*

Forma **№** 23

SI**Ğ**ORTAÇI (T**Ə**KRARSI**Ğ**ORTAÇI) **və** HÜQUQ**İ** **ŞƏ**XS SI**Ğ**ORTA BROKER**İNİ**N B**Ə**Z**İ** GÖST**Ə**R**İ**C**İ**L**Ə**R**İ** HAQQINDA HESABAT (rüblük **və** illik)

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı:

Hesabat dövrü

| **Sı**ra sayı | Ödənilmi**ş** nominal (nizamnam**ə**) kapital**ı** (manatla) | | | **Ş**tat i**ş**çil**ə**ri-nin say**ı** | **Sığ**ortaç**ı**ya xidm**ə**t göst**ə**r**ə**n **sığ**orta agentl**ə**ri | | Xidm**ə**tin-d**ə**n istifad**ə** edil**ə**n bankl**a**r**ı**n ad**ı** | Hüquqi ünvan**ı**, oldu**ğ**u yer v**ə** telefonu | VÖEN-i v**ə** uçota al**ı**nd**ığı** vergi orqan**ı**n**ı**n ad**ı** | **Rə**hb**ə**r **iş**çil**ə**rinin v**ə**zif**ə**si, ad**ı**, atas**ı**n**ı**n ad**ı**, soyad**ı** v**ə** telefonu | Filial v**ə** nümay**ə**n-d**ə**likl**ə**rin ad**ı**, oldu**ğ**u yer v**ə** telefonu | Filial v**ə** nümay**ə**nd**ə**lik-l**ə**rin r**ə**hb**ə**rl**ə**rinin ad**ı**, soyad**ı**, ünvan**ı** v**ə** telefonu | Filial v**ə** nümay**ə**n-d**ə**likl**ə**rin **ş**tat **iş**çil**ə**rinin say**ı** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *Cəmi* | *Pul vəsaiti* | *Əmlak* | | *Adı (soyadı, adı və atasının adı)* | *Lisenziyanın nömrəsi* | | | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| *1* | | | | | | | | | | | | | |
| 2 | | | | | | | | | | | | | |
| 3 | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | | | |

R**ə**hb**ə**r:

M.Y.

Baş mühasib

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə*
*təsdiq edilmişdir.* *16 nömrəli əlavə*

Forma 23/1

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) SƏHMDARLARI və ONLARIN
(SƏHMDARLARIN) NİZAMNAMƏ KAPİTALINDA İŞTİRAK EDƏN ŞƏXSLƏR HAQQINDA
HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı:

Hesabat dövrü :

| Sıra sayı | Sığortaçının(təkrarsığortaçının) ödənilmiş nominal (nizamnamə) kapitalı *(manatla)* | Təsisçilərin və (və ya) səhmdarlarının adı *(xarici fiziki və ya hüquqi şəxsin, həmçinin ölkəsinin adı ), ünvanı və telefonu* | Sığortaçının(təkrarsığortaçının ) ödənilmiş nominal (nizamnamə) kapitalında iştirak payı | | Hesabat dövründə təsisçilərin (səhmdarların ) tərkibində və paylarında edilmiş dəyişikliklərin tarixi və məzmunu | Sığortaçının(təkrarsığortaçının) hüquqi şəxs olan səhmdarlarının nizamnamə kapitalında əhəmiyyətli nəzarətə (50% və daha çox) malik şəxslərin, həmçinin sığortaçının(təkrarsığortaçının) yerli hüquqi şəxs səhmdarlarının nizamnamə kapitalında iştirak edən xarici şəxslərin | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | manat | % | | Adı *(xarici fiziki və ya hüquqi şəxsin, həmçinin ölkəsinin adı)* | Sığortaçının(təkrarsığortaçının ) səhmdarı olan hüquqi şəxsin nizamnamə kapitalında payı | |
| | | | | | | | manat | % |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | | | | | | | | |
| 2 | | | | | | | | |
| 3 | | | | | | | | |
| ... | | | | | | | | |
| ... | | | | | | | | |

İdarə heyətinin sədri :

M.Y.

Baş mühasib :

Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin Kollegiyasının
“27”mart 2014-cü il tarixli
Q-08 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

*17 nömrəli əlavə*

## Aktuar hesablamaların aparılmasına dair

## Təlimat

### 1. Ümumi müddəalar

1.1. Aktuar hesablamaların aparılmasına dair Təlimat (bundan sonra təlimat) “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 806-IVQD nömrəli Qanununun tətbiqi və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 dekabr tarixli 49 nömrəli Fərmanının 4.1.6-cı bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 81-2.2-ci maddəsinə uyğun olaraq, 81-1-ci maddəsində nəzərdə tutulmuş hesablamaların metod və prinsipləri üzrə tələbləri tənzimləyir.

1.2. Bu Təlimatın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.2.1. sığorta təminatının vahidi – sığorta tarifinin hesablanması üçün istifadə olunan ölçü vahidi;

1.2.2. sığorta tarifi – xalis sığorta tarifi və yüklənmədən ibarət olmaqla sığorta təminatı vahidinin dəyəri;

1.2.3. xalis sığorta tarifi – əsas hissə və risk üstəliyindən ibarət olmaqla sığorta ödənişlərinin həyata keçirilməsi üçün sığorta ehtiyatlarının formalaşdırılmasını təmin edən hissə;

1.2.4. əsas hissə – sığorta ödənişinin gözlənilən qiyməti (riyazi gözləməsi);

1.2.5. risk üstəliyi – sığorta ödənişinin gözlənilən qiymətindən təsadüfi yayınmanı əks etdirən hissə;

1.2.6. yüklənmə – sığorta əməliyyatlarının həyata keçirilməsi ilə bağlı işlərin aparılması xərclərini, qarşısıalınma tədbirlərinin maliyyələşdirilməsini və tarif mənfəətini təmin edən hissə. Yüklənmənin tərkib hissələri ilə bağlı ətraflı maliyyə təhlili aparılmalı və hesablamalara daxil edilməlidir;

1.2.7. risklərin təsnifatı – uyğun diferensiallaşdırma əmsalları ilə sığortalını və ya riskin dərəcəsini səciyyələndirən meyarların siyahısı;

1.2.8. diferensiallaşdırma əmsalları – sığorta predmetinin risk amillərini nəzərə almaq üçün sığorta tarifinə tətbiq olunan əmsallar.

### 2. Qeyri-həyat sığortası üzrə sığorta tariflərinin hesablanmasına dair ümumi tələblər

2.1. Hesablamalarda istifadə olunan düsturların çıxarılışı tam və izahlı verilməli, sığorta hadisələrinin və zərərlərin paylanması üçün istifadə edilən paylanma funksiyaları ehtimal

nəzəriyyəsinin və riyazi statistikanın metodlarından istifadə edilməklə əsaslandırılmalı, həmçinin müvafiq hesablamaların aparılması üçün zəruri olan bütün parametrlərin ədədi qiymətləri, eyni zamanda istifadə olunan ilkin statistik göstəricilərin mənbəyi haqqında ətraflı məlumat və həmin göstəricilərin aid olduğu zaman dövrü göstərilməlidir.

2.2. Bu Təlimatın tələbləri ilə sığorta tariflərinin hesablanması sığortanın bütün sinifləri, həmçinin müəyyən sığorta siniflərini özündə birləşdirən sığorta növləri üzrə aparılmalı və sığortaçı tərəfindən hesablamalara üç ildə ən azı bir dəfə yenidən baxılmalıdır.

2.3. Sığorta tariflərinin hesablanmasında sığorta risklərini səciyyələndirən statistik məlumatlar istifadə olunur.

2.4. Sığorta sinfi (növü) üzrə sığorta tariflərinin hesablanması məqsədi ilə hesablamaların aparıldığı tarixdən əvvəlki son üç və daha artıq tam maliyyə illəri üçün mövcud olan statistik məlumatlar istifadə olunmalıdır.

2.5. Sığorta tariflərinin hesablanması zamanı ilkin statistik məlumatların tətbiqi üçün aşağıdakılardan birinə riayət olunmalıdır:

2.5.1. sığorta sinfi (növü) üzrə sığorta tariflərinin hesablanması sığorta tarifinin qiymətinə ən çox təsir göstərən bir və ya bri neçə əsas sığorta riski üzrə mövcud olan ilkin statistik məlumatlar əsasında aparılır;

2.5.2. sığorta sinfi (növü) üzrə sığorta tariflərinin hesablanması sığorta təminatı verilən bütün sığorta risklərinin məcmusu üzrə mövcud olan ilkin statistik məlumatlar əsasında aparılır.

2.6. Sığorta tariflərinin hesablanması zamanı istifadə olunan makroiqtisadi göstəricilər (inflyasiya göstəricisi, minimum hesablama göstəricisi) bu göstəricilər üçün hesablama tarixinə olan rəsmi məlumatlara uyğun olmalıdır.

2.7. Qeyr-həyat sığortasına aid olan sığorta sinfi üzrə sığorta tarifinin hesablanması üçün aşağıdakı düsturdan istifadə edilir:

$$B = N / (1 - f)$$

Burada:

B - sığorta tarifidir;

N - xalis sığorta tarifidir;

f - yüklənmədir (sığorta haqqından faizlə ifadə edilir).

Sığorta sinfi üzrə statistika mövcuddursa, xalis sığorta tarifinin hesablanması üçün aktuarinin aşağıdakı düsturdan istifadə etmək hüququ vardır:

$$N = \frac{M[X] + \sqrt{D[X]} \cdot \Phi^{-1}(\gamma)}{n} \times \frac{1}{S}$$

Burada:

n – sığortalanması nəzərdə tutulan predmetlərin (sığorta predmetlərinin) sayıdır;

S – bircins sığorta portfelini təşkil edən sığorta predmetlərinin hər biri üzrə sığorta məbləğidir;

X - bircins sığorta portfeli üzrə ümumi zərəri ifadə edən təsadüfi kəmiyyətdir;

M[X] - X təsadüfi kəmiyyətinin riyazi gözləməsidir;

D[X] - X təsadüfi kəmiyyətinin dispersiyasıdır;

γ - xalis sığorta haqlarının sığorta ödənişlərinin verilməsinə kifayət etməsi ehtimalıdır (təminat ehtimalı);

$\Phi^{-1}(\gamma)$ – təminat ehtimalına uyğun əmsaldır.

Sığorta tariflərinin hesablanmasında γ-nın və $\Phi^{-1}(\gamma)$-nın qiymətləri ilə bağlı aşağıdakı cədvəldən istifadə etmək olar:

| γ | 0,84 | 0,90 | 0,95 | 0,98 | 0,9986 |
|---|---|---|---|---|---|
| $\Phi^{-1}(\gamma)$ | 1,0 | 1,3 | 1,645 | 2,0 | 3,0 |

Sığorta sinfi üzrə statistika mövcuddursa, X təsadüfi kəmiyyətinin riyazi gözləməsini və dispersiyasını riyazi statistikanın metodları vasitəsi ilə qiymətləndirmək olar.

2.8. Müəyyən bir sığorta sinfi üzrə statistika yoxdursa, sığortaçı sığorta tariflərinin hesablanması məqsədi ilə sığorta nəzarəti orqanının sığorta bazarı üzrə hər bir sığorta sinfinə dair açıqladığı statistik göstəricilərdən istifadə etməlidir.

## 3. Qeyri-həyat sığortası üzrə sığorta tariflərinin qiymətləndirilməsi və hesablanması metodlarına dair tələblər

3.1. Sığorta sinfi (növü) üzrə sığorta tariflərinin hesablanması bu məqsədlə seçilmiş metoda uyğun həyata keçirilir.

3.2. Sığorta sinfi (növü) üzrə sığorta tariflərinin hesablanması metodu aşağıdakı məlumatları özündə əks etdirilməlidir:

3.2.1. sığorta tarifinin hesablanması üçün istifadə olunmuş metod üzrə informasiyaların mənbəyi haqqında ətraflı məlumat;

3.2.2. sığorta tarifinin hesablanması üçün istifadə olunan metodun tam izahı.

3.3. Sığorta tariflərinin hesablanması metodunun izahı hesablamadan asılı olmayaraq ayrıca verilir.

3.4. Sığorta tarifinin hesablanması metodu sığorta tarifinin aşağıdakı tərkib hissələrini müəyyən edir:

3.4.1. xalis sığorta tarifinin əsas hissəsi;

3.4.2. risk üstəliyi;

3.4.3. xalis sığorta tarifi;

3.4.4. yüklənmə.

3.5. Sığorta tariflərinin hesablanması metodlarının istifadə olunan ilkin statistik məlumatlara adekvatlığı və uyğunluğu aşağıdakı meyarlarla müəyyən olunur:

3.5.1. hesablama metoduna müvafiq olaraq, ilkin statistik məlumatlar və sığorta tariflərinin hesablanmasında iştirak edən hesablama parametrləri arasında uyğunluq olmalıdır;

3.5.2. sığorta tariflərinin hesablanması üçün seçilmiş metod sığorta tarifinin qiymətinə təsir edən hesablama göstəricilərinin (sığorta hadisəsinin baş vermə ehtimalı, zərərin ağırlığı, zərərlilik dərəcəsi və s.) artmasına və ya azalmasına dair meylləri nəzərə alır;

3.5.3. sığorta tariflərinin seçilmiş metodla hesablanması zamanı alınmış aralıq və yekun nəticələrin iqtisadi mahiyyəti və məqsədəuyğunluğu olmalıdır.

## 4. Həyat sığortası üzrə sığorta haqlarının hesablanmasına dair ümumi tələblər

4.1. Həyat sığortasına aid sığorta sinifləri (növləri) üzrə sığorta tariflərinin və ya sığorta haqlarının hesablanması zamanı istifadə edilən ölüm cədvəllərinin və əlillik cədvəllərinin göstəricilərinin mənbələri, bu cədvəllərin qurulması metodları (riyazi cəhətdən tam əsaslandırılmaqla) haqqında ətraflı məlumat verilməli və qeyd olunan cədvəllər hesablamalara əlavə olunmalıdır.

4.2. Həyatın ölüm halından sığortası, həyatın yaşam sığortası və annuitet sığortası üzrə sığorta haqlarının hesablanmasında istifadə olunan kəmiyyətlər aşağıdakı düsturlarla hesablanır:

x yaşlı şəxsin n il müddətində yaşam riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri aşağıdakı düstura əsasən hesablanır:

$$_nE_x = ({}_np_x)(1+i)^{-n} = v^n {}_n p_x$$

Burada ${}_n p_x$ x yaşlı şəxsin n il yaşaması ehtimalı, i isə illik faiz dərəcəsidir. Onların qiymətləri müvafiq olaraq, Əlavə 1 və Əlavə 2-də qeyd edilmişdir. $v$ isə diskontlaşdırma vuruğudur və aşağıdakı düsturla hesablanır:

$$v = (1+i)^{-1}$$

*nEx*-in komutasiyon funksiyalar vasitəsi ilə ifadə düsturu aşağıdakı kimidir:

$$_nE_x = \frac{D_{x+n}}{D_x}$$

x yaşlı şəxsin n il müddətində ölüm riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri aşağıdakı düstura əsasən hesablanır:

$$A^1_{x:\overline{n}|} = \sum_{t=0}^{n-1} {}_t p_x q_{x+t} v^{t+1}$$

Burada $q_x$ x yaşlı şəxsin qarşıdakı il ərzində ölməsi ehtimalıdır və onun qiymətləri Əlavə 1-də qeyd edilmişdir.

Bu kəmiyyətin komutasiyon funksiyalar vasitəsi ilə ifadə düsturu aşağıdakı kimidir:

$$A^1_{x:\overline{n}|} = \sum_{t=0}^{n-1} \frac{C_{x+t}}{D_x} = \frac{M_x - M_{x+n}}{D_x}$$

Ölümün yalnız diskret zamanın sonunda baş verməməsini nəzərə alaraq, x yaşlı şəxsin n il müddətində ölüm riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri aşağıdakı düsturla hesablanır:

$$\overline{A}^1_{x:\overline{n}|} = \frac{i}{\delta} \cdot A^1_{x:\overline{n}|}$$

Burada $\delta$ illik faiz dərəcəsinin intensivliyidir və aşağıdakı kimi hesablanır:

$$\delta = \ln(1+i)$$

x yaşlı şəxsə n il müddətində hər bir sığorta ilinin əvvəlində ödənilən vahid məbləğlərin gözlənilən cari dəyəri aşağıdakı düsturla hesablanır:

$$\ddot{a}_x = 1 + \sum_{t=1}^{\infty} v^t {}_t p_x = 1 + \sum_{t=1}^{\infty} {}_t E_x$$

Bu kəmiyyətin komutasiyon funksiyalar vasitəsi ilə ifadə düsturu aşağıdakı kimidir:

$$\ddot{a}_{x:\overline{n}|} = \frac{N_x - N_{x+n}}{D_x}$$

Müddəti n il olan annuitet sığortası üzrə x yaşlı şəxsə hər bir sığorta ili ərzində m dəfə (ilin 1/m hissələrinin əvvəlində 1/m məbləğində) ödənilən məbləğlərin gözlənilən cari dəyəri aşağıdakı düsturla hesablanır:

$$\ddot{a}^{(m)}_{x:\overline{n}|} = \ddot{a}_{x:\overline{n}|} - \left(\frac{m-1}{2m}\right)(1 - {}_nE_x)$$

4.3. Həyatın ölüm halından sığortası üzrə sığorta məbləği (S ilə işarə edilir) məlum olduqda, n illik sığorta təminatı üçün k (k≤n) il müddətində hər bir sığorta il ərzində m dəfə bərabər məbləğdə ödənilən sığorta haqqı ($P_m$ ilə işarə edilir) aşağıdakı düsturla hesablanır:

$$P_m = \frac{(1+\rho_1)\times S\times \overline{A}^1_{x:\overline{n}|} + \alpha\times S + \gamma\times S\times \ddot{a}_{x:\overline{n}|}}{m\times(1-\beta)\times \ddot{a}^{(m)}_{x:\overline{k}|}}$$

Sığorta haqqı məlum olduqda sığorta məbləği aşağıdakı düsturla hesablanır:

$$S = \frac{m\times P_m \times(1-\beta)\times \ddot{a}^{(m)}_{x:\overline{k}|}}{(1+\rho_1)\times \overline{A}^1_{x:\overline{n}|} + \alpha + \gamma\times S\times \ddot{a}_{x:\overline{n}|}}$$

Birdəfəlik sığorta haqqı (P ilə işarə edilir) isə aşağıdakı düsturla hesablanır:

$$P = \frac{(1+\rho_1)\times S\times \overline{A}^1_{x:\overline{n}|} + \alpha\times S + \gamma\times S\times \ddot{a}_{x:\overline{n}|}}{(1-\beta)}$$

Birdəfəlik sığorta haqqı məlum olduqda sığorta məbləği aşağıdakı düsturla hesablanır:

$$S = \frac{P\times(1-\beta)}{(1+\rho_1)\times \overline{A}^1_{x:\overline{n}|} + \alpha + \gamma\times S\times \ddot{a}_{x:\overline{n}|}}$$

4.4. Həyatın yaşam sığortası üzrə sığorta məbləği məlum olduqda, n illik sığorta təminatı üçün k (k≤n) il müddətində hər bir sığorta ili ərzində m dəfə bərabər məbləğdə ödənilən sığorta haqqı aşağıdakı düsturla hesablanır:

$$P_m = \frac{(1+\rho_1)\times S\times \overline{A}^1_{x:\overline{n}|} + (1+\rho_2)\times S\times {}_nE_x + \alpha\times S + \gamma\times S\times \ddot{a}_{x:\overline{n}|}}{m\times(1-\beta)\times \ddot{a}^{(m)}_{x:\overline{k}|}}$$

Sığorta haqqı məlum olduqda sığorta məbləği aşağıdakı kimi hesablanır:

$$S = \frac{m\times P_m \times(1-\beta)\times \ddot{a}^{(m)}_{x:\overline{k}|}}{(1+\rho_1)\times \overline{A}^1_{x:\overline{n}|} + (1+\rho_2)\times {}_nE_x + \alpha + \gamma\times \ddot{a}_{x:\overline{n}|}}$$

4.5. Annuitet sığortası üzrə sığorta haqlarının x yaşdan (x+k) yaşadək hər bir sığorta ili ərzində m dəfə, sığorta ödənişlərinin isə (x+k) yaşdan (x+n) yaşadək hər bir sığorta ili ərzində q dəfə bərabər məbləğdə ($S_q$ ilə işarə edilir) ödənilməsi nəzərdə tutularsa, sığorta haqqı aşağıdakı düsturla hesablanır:

$$P_m = \frac{(1+\rho_2)\times q\times S_q \times {}_{k|}\ddot{a}^{(q)}_{x:\overline{n-k}|} + \alpha\times q\times S_q + \gamma\times q\times S_q\times \ddot{a}_{x:\overline{n}|}}{m\times(1-\beta)\times \ddot{a}^{(m)}_{x:\overline{k}|}}$$

Sığorta haqqı məlum olduqda sığorta ödənişi aşağıdakı kimi hesablanır:

$$S_q = \frac{m\times P_m \times(1-\beta)\times \ddot{a}^{(m)}_{x:\overline{k}|}}{(1+\rho_1)\times q\times {}_{k|}\ddot{a}^{(q)}_{x:\overline{n-k}|} + \alpha\times q + \gamma\times q\times \ddot{a}_{x:\overline{n}|}}$$

4.6. Həyatın ölüm halından sığortası, yaşam sığortası və annuitet sığortası üzrə sığorta təminatının t-ci ilinin sonuna uzunmüddətli öhdəliklər ehtiyatı (riyazi ehtiyatlar) müvafiq olaraq aşağıdakı düsturlarla hesablanır:

$$ {}_tV_x = \begin{cases} (1+\rho_1)\times S\times \bar{A}^1_{x+t:\overline{n-t}|}+\gamma\times S\times \ddot{a}_{x+t:\overline{n-t}|}-m\times P_m\times(1-\beta)\cdot\ddot{a}^{(m)}_{x+t:\overline{k-t}|}, t<k \\ (1+\rho_1)\times S\times \bar{A}^1_{x+t:\overline{n-t}|}+\gamma\times S\times \ddot{a}_{x+t:\overline{n-t}|}, t\geq k \end{cases} $$

$$ {}_tV_x = \begin{cases} (1+\rho_1)\times S\times \bar{A}^1_{x+t:\overline{n-t}|}+(1+\rho_2)\times S\times {}_{n-t}E_{x+t}+\gamma\times S\times \ddot{a}_{x+t:\overline{n-t}|}-m\times P_m\times(1-\beta)\cdot\ddot{a}^{(m)}_{x+t:\overline{k-t}|}, t<k \\ (1+\rho_1)\times S\times \bar{A}^1_{x+t:\overline{n-t}|}+(1+\rho_2)\times S\times {}_{n-t}E_{x+t}+\gamma\times S\times \ddot{a}_{x+t:\overline{n-t}|}, t\geq k \end{cases} $$

$$ {}_tV_x = \begin{cases} (1+\rho_2)\times q\times S_q\times {}_{k-t|}\ddot{a}^{(q)}_{x+t:\overline{n-k}|}+\gamma\times q\times S_q\times \ddot{a}_{x+t:\overline{n-t}|}-m\times P_m\times(1-\beta)\cdot\ddot{a}^{(m)}_{x+t:\overline{k-t}|}, t<k \\ (1+\rho_2)\times q\times S_q\times \ddot{a}^{(q)}_{x+t:\overline{n-t}|}+\gamma\times q\times S_q\times \ddot{a}_{x+t:\overline{n-t}|}, t\geq k \end{cases} $$

Sığorta illərinin arasında olan zaman kəsikləri üçün isə riyazi ehtiyat xətti interpolyasiya metodu ilə qiymətləndirilir:

$$ {}_{t+s}V_x = (1-s)\times {}_tV_x + s\times {}_{t+1}V_x $$

Burada, 0 < s < 1.

4.7. Həyatın yaşam sığortası və annuitet sığortası üzrə sığorta təminatının t-ci ilinin sonunda sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilərsə, qaytarılan məbləğ ${}_tSV_x$ aşağıdakı düstürla hesablanır:

$$ {}_tSV_x = {}_tV_x - (S - {}_tV_x)\times 2\% $$

4.8. Həyat sığortası sinifləri üzrə 4.3 – 4.6-cı bəndlərində göstərilən düsturlarda iştirak edən $\alpha$, β, $\gamma$, $\rho_1$ və $\rho_2$ əmsalları aşağıdakı mənalara malikdir:

$\alpha$ - sığorta müqaviləsi bağlanarkən çəkilən xərcləri (sığorta vasitəçilərinə hesablanmış komisyon muzdlar çıxılmaqla) ifadə edən və faizlə ifadə olunan əmsaldır;

β - sığorta haqlarının ödənilməsi dövrü ərzində onlarla bağlı çəkilən xərcləri ifadə edən və faizlə ifadə olunan əmsaldır;

$\gamma$ - sığorta müaviləsinin qüvvədə olduğu müddət ərzində çəkilən illik inzibati xərcləri ifadə edən və faizlə ifadə olunan əmsaldır;

$\rho_1$ - ölüm hadisəsi ilə bağlı zərərlərin tənzimlənməsi xərclərini ifadə edən və faizlə ifadə olunan əmsaldır;

$\rho_2$ - yaşam hadisəsi ilə bağlı zərərlərin tənzimlənməsi xərclərini ifadə edən və faizlə ifadə olunan əmsaldır.

Bu əmsalların qiymətləri Əlavə 2-də göstərilmişdir.

4.9. Sığortaçı həyat sığortası sinifləri (növləri) üzrə sığorta haqlarını özünün tərtib etdiyi ölüm və əlillik cədvəlinə və seçdiyi metoda əsasən hesablaya bilər. Bir şərtlə ki, komisyon muzdlar nəzərə alınmadan hesablanmış həmin sığorta haqları bu Təlimatın 4.3–4.5-ci və 4.8-ci bəndlərinə əsasən hesablanmış sığorta haqlarından az olmamalıdır.

Qeyd: Bu Təlimatın 4-cü hissəsində qeyd olunan düsturlarda əks olunan əmsallar aşağıdakı mənaları ifadə edir:

x- şəxsin yaşı
n- (il) müddət
i- faiz dərəcəsi
v- diskontlaşdırma vuruğudur
*nPx*- x yaşlı şəxsin n il yaşaması ehtimalı
*nEx*- x yaşlı şəxsin n il müddətində yaşam riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri
$S_i$-sığorta məbləği
$\ddot{a}^{(m)}_{x:\overline{n}|}$ -annuititet ödənişlərin cari dəyəri (ildə m dəfə)
$q_{x+t}$ x yaşlı şəxsin qarşıdakı t il ərzində ölməsi ehtimalıdır
$q_x$ x yaşlı şəxsin qarşıdakı il ərzində ölməsi ehtimalıdır
$A^1_{x:\overline{n}|}$ - diskret hal üçün x yaşlı şəxsin n il müddətində ölüm riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri
$C_{x+t}$, $D_x$, $M_x$, $M_{x+n}$, $N_x$, $N_{x+n}$ - komutasyon funksiyalarDiskont vurğu və yaşam ehtimalı vasitəsi ilə aşağıdakı kimi hesablanırlar.

$D_x = l_x v^x$, $C_x = d_x v^{x+1}$ $N_x = \sum_{t=0}^{n} D_x$ $M_x = \sum_{t=0}^{n} C_x$

$\delta$ - illik faiz dərəcəsinin intensivliyidir
$\overline{A}^1_{x:\overline{n}|}$ - x yaşlı şəxsin n il müddətində ölüm riskindən sığortası üzrə sığorta ödənişinin gözlənilən cari dəyəri
$\ddot{a}_x$ - x yaşlı şəxsə n il müddətində hər bir sığorta ilinin əvvəlində ödənilən vahid məbləğlərin gözlənilən cari dəyəri
$\ddot{a}_{x:\overline{n}|}$ - annuititet ödənişlərin cari dəyəri
*m* – il ərzində ödənilən annuitet ödənişlərinin sayı
$S$ -sığorta məbləği
${}_tV_x$ - riyazi ehtiyat
s – interpoliasiya əmsalıdır
${}_tSV_x$ -qaytarılan məbləğ
lx- yaşında olanların sayı

dx- x yaşından x+1 yaşına keçdikdə ölənlərin sayı

$q_x$ x yaşlı şəxsin qarşıdakı il ərzində ölməsi ehtimalıdır.

### 5. Sığorta tariflərinin və ya sığorta haqlarının hesablanmasının nəticələrinə dair tələblər və onların rəsmiləşdirilməsi

5.1. Sığorta sinfi (növü) üzrə sığorta tariflərinin hesablanması nəticəsində aşağıdakı göstəricilər müəyyən olunmalı və əsaslandırılmalıdır:

5.1.1. xalis sığorta tarifinin baza, minimum baza və maksimum baza qiymətləri;

5.1.2. xalis sığorta tarifinin baza qiymətinə diferensiallaşdırma əmsallarının (bu əmsalların qiymətlərinin əsaslandırılması əlavə edilməklə) tətbiq olunmasını şərtləndirən risk amilləri;

5.1.3. sığortanın sinifləri (növləri) üzrə risklərin ətraflı təsnifatı;

5.1.4. sığortalıların (sığorta olunanların) kateqoriyalarından və qəbul olunan təsnifata görə sığorta risklərindən asılı olaraq sığorta tariflərinin (sığorta haqlarının məbləğlərinin) paylanması cədvəlləri.

5.2. bu təlimatın 5.1.4-cü yarımbəndinin tələbi həyat sığortası üzrə fəaliyyət göstərən sığortaçılara münasibətdə şamil olunmur.

5.3. Sığorta tariflərinin və ya sığorta haqlarının hesablanmasına dair sənəd müvafiq aktuari şəhadətnaməsinin nömrəsi və verilmə tarixi, aktuarinin adı, soyadı və atasının adı göstərilməklə onun imzası və möhürü (əgər varsa) ilə təsdiq olunmalıdır.

### 6. Tələb olunan kapitalın hesablanmasına dair tələblər

6.1. Tələb olunan kapital həyat və qeyri-həyat sığortaları üzrə ayrı-ayrılıqda müəyyən edilir.

6.2. Qeyri-həyat sığortası üzrə sığortaçının ödəmə qabiliyyətinin tələb olunan səviyyəsinin müəyyən edilməsi ilə bağlı aktuar hesablamalar “sığorta haqları” və “sığorta ödənişləri” metodları əsasında aparılır.

6.3. Tələb olunan kapitalın hesablanması sığorta nəzarəti orqanının qəbul etdiyi “Sığortaçıların tələb olunan kapitalının müəyyənləşdirilməsi Qaydaları”ına əsasən tənzimlənir.

### 7. Məcmu kapitalın hesablanmasına dair tələblər

7.1. «Sıgorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 79.5-ci maddəsinə əsasən sığortaçının məcmu kapitalının məbləği onun tələb olunan kapitalının məbləğindən az ola bilməz.

7.2. Məcmu kapitalın hesablanmasında «Sıgorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 63.1-ci maddəsində göstərilən aktivlər qrupuna sığortaçının investisiyaya yönəldilmiş öz vəsaiti nəzərə alınır.

7.3. Məcmu kapitalın hesablanmasında istifadə olunan aktivlər qrupuna müvafiq likvidlik və diversifikasiya əmsalları tətbiq edilir.

7.4. Məcmu kapitalın hesablanması sığorta nəzarəti orqanının qəbul etdiyi “Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar”ına əsasən tənzimlənir.

### 8. Sığortaçının öz vəsaitinin hesablanmasına dair tələblər

8.1. Sığortaçının öz vəsaitinin hesablanmasında onun aktivlərinin məcmu balans dəyəri, sıgorta fəaliyyəti ilə baglı balans öhdəlikləri (sıgorta ehtiyatları çıxılmaqla), ödəmə vaxtı 90 gündən artıq müddətə gecikdirilməmis sıgorta və təkrarsıgiorta haqları (dövlət icbari şəxsi sıgortaları üzrə alınmalı olan sıgorta və təkrarsıgorta haqları istisna olmaqla), sıgorta ehtiyatları, sıgorta ehtiyatlarını təmin edən vəsaitlərinin ifadə olundugu aktivlərinin balans dəyərlərinin məcmu məblәgi, sıgorta fəaliyyəti ilə baglı olmayan balans öhdəlikləri, balansdan kənar öhdəlikləri (ödənilməsinə zəmanət verilmis məbləglərin cəmi), «Sıgorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 63.1.1-63.1.6-cı və 64.1.1-64.1.7-ci maddələrində göstərilmiş aktivlərin qrupuna aid olmayan aktivlərin məcmu balans dəyəri nəzərə alınır.

8.2. Sığortaçının öz vəsaitinin hesablanması sığorta nəzarəti orqanının qəbul etdiyi “Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar”ına əsasən tənzimlənir.

## 9. Sığorta ehtiyatlarının hesablanmasına dair tələblər

9.1. Sığorta və təkrarsığorta müqavilələri üzrə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi üçün sığortaçılar öz öhdəliklərinə adekvat olan sığorta ehtiyatları formalaşdırırlar.

9.2. Sığortaçı “Baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı”nın (BVBZE) hesablanması üçün alternativ metoddan istifadə edə bilər ki, həmin metodla hesablanmış BVBZE sığorta nəzarəti orqanının müəyyən etdiyi “Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydaları”na əsasən hesablanmış BVBZE-dən az olmamalıdır.

9.3. Sığorta ehtiyatlarının hesablanması sığorta nəzarəti orqanının qəbul etdiyi “Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydaları”na əsasən tənzimlənir.

## 10. Sığortaçıların zərərlilik dərəcəsinin hesablanmasına dair tələblər

10.1. Bu Təlimatın məqsədləri üçün zərərlilik dərəcəsi yalnız qeyri-həyat sığortası sinifləri üzrə müəyyən edilir.

10.2. Zərərlilik dərəcəsinin hesablanmasında sığorta hadisələri ilinə aid olan göstəricilərdən istifadə edilir.

10.3. Zərərlilik dərəcəsinin hesablanması sığorta nəzarəti orqanının qəbul etdiyi “Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydaları”na əsasən tənzimlənir.

## 11. Sığorta və təkrarsığorta müqavilələri üzrə şəxsi tutumun hesablanmasına dair tələblər

11.1. Sığortaçının şəxsi tutumu sığorta və təkrarsığorta müqavilələri üzrə ayrı-ayrılıqda müəyyən edilir.

11.2. Sığortaçının şəxsi tutumu sığorta predmeti və sığorta (təkrarsığorta) müqaviləsi üzrə müəyyən edilir.

11.3. «Sıgorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 79.6-cı maddəsinə əsasən sığortaçının bir sığorta predmeti üzrə sığorta riskləri ilə bağlı şəxsi tutumunun həcmi onun məcmu kapitalının 10 faizindən çox olmamalıdır.

11.4. «Sıgorta fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 79.7-ci maddəsinə əsasən, həmin Qanunun 79.6-cı maddəsinin tələbi nəzərə alınmaqla, sığortaçının əmlak sığortasına aid bir sığorta müqaviləsi üzrə risklərlə bağlı şəxsi tutumunun həcmi onun məcmu kapitalının 30 faizindən çox olmamalıdır.

## Ölüm cədvəli

| x | lx | dx | **qx** | x | lx | dx | **qx** | x | Lx | dx | **Qx** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 0 | 1000 000 | 12 887 | 0,0129 | 36 | 958 740 | 1 859 | 0,0019 | 72 | 533 874 | 32 267 | 0,0604 |
| 1 | 987 113 | 1 906 | 0,0019 | 37 | 956 881 | 2 010 | 0,0021 | 73 | 501 607 | 33 200 | 0,0662 |
| 2 | 985 207 | 1 068 | 0,0011 | 38 | 954 871 | 2 276 | 0,0024 | 74 | 468 407 | 33 449 | 0,0714 |
| 3 | 984 139 | 701 | 0,0007 | 39 | 952 595 | 2 300 | 0,0024 | 75 | 434 958 | 34 489 | 0,0793 |
| 4 | 983 438 | 536 | 0,0005 | 40 | 950 294 | 2 547 | 0,0027 | 76 | 400 470 | 34 058 | 0,0850 |
| 5 | 982 902 | 487 | 0,0005 | 41 | 947 747 | 2 797 | 0,0030 | 77 | 366 412 | 33 118 | 0,0904 |
| 6 | 982 415 | 464 | 0,0005 | 42 | 944 950 | 3 016 | 0,0032 | 78 | 333 294 | 32 793 | 0,0984 |
| 7 | 981 951 | 429 | 0,0004 | 43 | 941 934 | 3 317 | 0,0035 | 79 | 300 501 | 31 694 | 0,1055 |
| 8 | 981 522 | 411 | 0,0004 | 44 | 938 616 | 3 561 | 0,0038 | 80 | 268 807 | 30 578 | 0,1138 |
| 9 | 981 111 | 403 | 0,0004 | 45 | 935 055 | 3 986 | 0,0043 | 81 | 238 229 | 27 247 | 0,1144 |
| 10 | 980 708 | 392 | 0,0004 | 46 | 931 069 | 4 296 | 0,0046 | 82 | 210 982 | 25 502 | 0,1209 |
| 11 | 980 316 | 375 | 0,0004 | 47 | 926 773 | 4 863 | 0,0052 | 83 | 185 480 | 24 176 | 0,1303 |
| 12 | 979 941 | 342 | 0,0003 | 48 | 921 910 | 5 371 | 0,0058 | 84 | 161 305 | 22 252 | 0,1380 |
| 13 | 979 599 | 343 | 0,0004 | 49 | 916 539 | 5 882 | 0,0064 | 85 | 139 052 | 19 549 | 0,1406 |
| 14 | 979 256 | 376 | 0,0004 | 50 | 910 658 | 6 653 | 0,0073 | 86 | 119 503 | 17 698 | 0,1481 |
| 15 | 978 880 | 429 | 0,0004 | 51 | 904 005 | 7 364 | 0,0081 | 87 | 101 806 | 16 015 | 0,1573 |
| 16 | 978 451 | 458 | 0,0005 | 52 | 896 642 | 7 851 | 0,0088 | 88 | 85 791 | 14 980 | 0,1746 |
| 17 | 977 993 | 500 | 0,0005 | 53 | 888 791 | 8 765 | 0,0099 | 89 | 70 811 | 13 613 | 0,1922 |
| 18 | 977 493 | 570 | 0,0006 | 54 | 880 026 | 9 798 | 0,0111 | 90 | 57 197 | 12 118 | 0,2119 |
| 19 | 976 923 | 600 | 0,0006 | 55 | 870 227 | 10 833 | 0,0124 | 91 | 45 079 | 10 535 | 0,2337 |
| 20 | 976 323 | 645 | 0,0007 | 56 | 859 394 | 11 283 | 0,0131 | 92 | 34 545 | 8 912 | 0,2580 |
| 21 | 975 678 | 666 | 0,0007 | 57 | 848 111 | 12 201 | 0,0144 | 93 | 25 633 | 7 308 | 0,2851 |
| 22 | 975 012 | 721 | 0,0007 | 58 | 835 910 | 13 131 | 0,0157 | 94 | 18 325 | 5 778 | 0,3153 |
| 23 | 974 291 | 757 | 0,0008 | 59 | 822 779 | 14 520 | 0,0176 | 95 | 12 547 | 4 154 | 0,3310 |
| 24 | 973 534 | 841 | 0,0009 | 60 | 808 260 | 15 427 | 0,0191 | 96 | 8 394 | 2 917 | 0,3476 |
| 25 | 972 693 | 856 | 0,0009 | 61 | 792 832 | 15 995 | 0,0202 | 97 | 5 476 | 1 999 | 0,3650 |
| 26 | 971 837 | 934 | 0,0010 | 62 | 776 837 | 17 634 | 0,0227 | 98 | 3 478 | 1 333 | 0,3832 |
| 27 | 970 903 | 979 | 0,0010 | 63 | 759 203 | 18 567 | 0,0245 | 99 | 2 145 | 863 | 0,4025 |
| 28 | 969 924 | 1 063 | 0,0011 | 64 | 740 636 | 20 359 | 0,0275 | 100 | 1 282 | 542 | 0,4225 |
| 29 | 968 861 | 1 131 | 0,0012 | 65 | 720 277 | 21 959 | 0,0305 | 101 | 740 | 328 | 0,4431 |
| 30 | 967 730 | 1 234 | 0,0013 | 66 | 698 318 | 23 457 | 0,0336 | 102 | 412 | 192 | 0,4647 |
| 31 | 966 496 | 1 271 | 0,0013 | 67 | 674 861 | 25 019 | 0,0371 | 103 | 221 | 108 | 0,4909 |
| 32 | 965 225 | 1 535 | 0,0016 | 68 | 649 842 | 26 318 | 0,0405 | 104 | 112 | 58 | 0,5179 |
| 33 | 963 690 | 1 578 | 0,0016 | 69 | 623 524 | 28 418 | 0,0456 | 105 | 54 | 54 | 1,0000 |
| 34 | 962 111 | 1 613 | 0,0017 | 70 | 595 107 | 29 665 | 0,0498 | | | | |
| 35 | 960 499 | 1 759 | 0,0018 | 71 | 565 441 | 31 568 | 0,0558 | | | | |

## İllik faiz dərəcəsi və xərc əmsalları

A. **Sığorta müqaviləsində göstərilən bütün valyutaların AZN olduğu hal:**

Həyat sığortası sinifləri üzrə sığorta haqlarının hesablanması məqsədi ilə sığorta müddətinin hər bir sığorta ili üçün illik faiz dərəcəsinin maksimum həddi sığorta müqavilələrinin bağlandığı tarixə Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi ilə bağlı olaraq aşağıdakı kimi müəyyən edilmişdir:

| Sığorta müddətinin illəri | Sığorta müddətinin hər bir sığorta ili üçün maksimum illik faiz dərəcəsi |
|---|---|
| 1-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi + 0,75% |
| 2-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi + 0,50% |
| 3-cü | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi + 0,25% |
| 4-cü | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi + 0% |
| 5-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 0,25% |
| 6-cı | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 0,75% |
| 7-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 1,25% |
| 8-ci | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 1,75% |
| 9-cu | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 2,25% |
| >=10-cu | Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi - 2,75% |

B. **Sığorta müqaviləsində göstərilən bütün valyutaların AZN olmadığı hal:**

Bu halda, sığorta müqaviləsində göstərilən bütün valyutalar həmin müqavilənin bağlandığı tarixə Azərbaycan Respublikası Mərkəzi Bankının məzənnəsinə uyğun olaraq, AZN-lə ifadə olunmalı və A bəndində göstərildiyi kimi hesablamalar aparılmalıdır.

C. **Xərc əmsallarının qiymətləri**

Xərc əmsallarının qiymətləri aşağıdakı kimi müəyyən edilmişdir:

| | |
|---|---|
| $\alpha$ | 0,50% |
| β | 0,30% |
| $\gamma$ | 0,25% |
| **ρ**1 | 3,00% |
| **ρ**2 | 1,50% |

Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin Kollegiyasının
“27” mart 2014-cü il tarixli
Q-08 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

*18 nömrəli əlavə*

## Aktuari şəhadətnaməsinin forması və doldurulması Qaydası

### 1. Ümumi müddəalar

1.1. Aktuari şəhadətnaməsinin forması və doldurulması Qaydası (bundan sonra “Qayda”) “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 806-IVQD nömrəli Qanununun tətbiqi və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 dekabr tarixli 49 nömrəli Fərmanının 4.1.7-ci bəndinin icrasını təmin etmək məqsədilə “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunun 81–3.6-cı maddəsinə uyğun olaraq hazırlanmışdır və aktuari şəhadətnaməsinin formasını, onun sığorta nəzarəti orqanının vəzifəli şəxsi tərəfindən doldurulması qaydasını tənzimləyir.

1.2. Aktuari şəhadətnaməsi aktuari fəaliyyətinin həyata keçirilməsinə səlahiyyəti təsdiq edən sənəddir.

1.3. Aktuari fəaliyyəti ilə məşğul olmaq üçün sığorta nəzarəti orqanında attestasiyadan keçmiş və aktuari şəhadətnaməsi verilməsi üçün dövlət rüsumunu ödəmiş şəxslərə attestasiyanın keçirildiyi tarixdən 10 iş günü ərzində sığorta nəzarəti orqanı tərəfindən aktuari şəhadətnaməsi verilir.

### 2. Aktuari şəhadətnaməsinin forması

2.1. Aktuari şəhadətnaməsi bu Qaydaya Əlavədə müəyyən edilmiş formada tərtib edilir.

2.2. Aktuari şəhadətnaməsinin formasında aşağıdakılar əks olunmalıdır:

2.2.1 bu Qaydaya Əlavə olması barədə qeyd;

2.2.2. Azərbaycan Respublikasının dövlət gerbinin təsviri;

2.2.3. “Aktuari şəhadətnaməsi” sözləri;

2.2.4. Şəhadətnamənin nömrəsi və verildiyi tarix üçün qeyd yeri;

2.2.5. Şəhadətnaməni verən orqanın adının qeyd olunması üçün sətirlər;

2.2.6. Şəhadətnamə ilə aktuari fəaliyyəti göstərmək səlahiyyəti təsdiq edilən şəxsin adının, atasının adının və soyadının qeyd olunması üçün sətir;

2.2.7. Şəhadətnamə ilə səlahiyyət verilən fəaliyyət növünü ifadə edən “aktuari fəaliyyəti” sözləri;

2.2.8. Şəhadətnamənin son qüvvədə olduğu tarixin qeyd olunması üçün yer;

2.2.9. Şəhadətnaməni imzalayan şəxsin vəzifəsinin, adının, soyadının və imzasının qeyd olunması üçün sətir;

2.2.10. Şəhadətnamə verən orqanın möhür yeri “M.Y.” baş hərfləri ilə qeyd olunur.

## 3. Aktuari şəhadətnaməsinin doldurulması

3.1.Aktuari şəhadətnaməsi sığorta nəzarəti orqanının əməkdaşı tərəfindən kompüter proqramları vasitəsilə elektron qaydada və ya diyircəkli qələmlə əl yazısı ilə doldurulur.

3.2. Aktuari şəhadətnaməsi aşağıdakı qaydada doldurulur:

3.2.1. Şəhadətnamə formasının “№” yerində aktuari şəhadətnamələrinin tarixlərinin xronoloji ardıcıllıqlarına uyğun olaraq sıralama əsasında təyin edilən miqdar sayı ərəb rəqəmləri ilə yazılır;

3.2.2. Şəhadətnamənin verilmə tarixi kimi gün, ay, il ardıcıllığı nəzərə alınmaqla doldurulmuş şəhadətnamə formasının sığorta nəzarəti orqanının vəzifəli şəxsi tərəfindən imzalandığı tarix qeyd edilir;

3.2.3. Şəhadətnaməni verən orqanın adı “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti” kimi yazılır;

3.2.4. Şəhadətnamə ilə aktuari fəaliyyəti göstərmək səlahiyyəti təsdiq edilən şəxsin adı və atasının adı ismin adlıq halında, soyadı isə yiyəlik halında yazılır.

3.2.5. Şəhadətnamənin verilmə tarixindən sonrakı 5 ilin tamamlandığı son tarix şəhadətnamənin son qüvvədə olma tarixi kimi yazılır;

3.2.6. Şəhadətnaməni imzalayan şəxsə aid sətirdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin rəhbərinə, o olmadıqda isə onun müavininə aid məlumatlar yazılmaqla şəhadətnamə imzalanır;

3.2.7. Şəhadətnamə “M.Y.” baş hərflərinin üzərində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin möhürü ilə təsdiqlənir.

3.3. Hər bir təsdiqlənmiş aktuari şəhadətnaməsindəki doldurulan bütün məlumatlar sığorta nəzarəti orqanı tərəfindən aparılan aktuarilərin reyestrində qeyd olunur.

*"Aktuari şəhadətnaməsinin forması və doldurulması Qaydası"na Əlavə*

**AKTUARİ ŞƏHADƏTNAMƏSİ**

**№____**

Şəhadətnamənin verilmə tarixi: **___ ___________ 20_____ il**

Şəhadətnaməni verən orqanın adı: ____________________________________________________

_______________________________________________________________________________

Bu şəhadətnamə ________________________________________________ **aktuari fəaliyyəti**

göstərmək səlahiyyətini təsdiq edir.

Şəhadətnamənin son qüvvədə olma tarixi: **___ ___________ 20_____ il**

| __________________________ | ____________________ | ______________________________ |
|---|---|---|
| *Şəhadətnaməni imzalayan şəxsin vəzifəsi:* | *imza* | *Şəhadətnaməni imzalayan şəxsin adı və soyadı:* |

*M.Y.*

Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin Kollegiyasının
“27” mart 2014-cü il tarixli
Q-08 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

*19 nömrəli əlavə*

**Sığorta vasitəçiliyi fəaliyyəti üzrə lisenziya verilməyən, hüquqi şəxs olan sığorta brokerinin səhmdarı və ya iştirakçısı ola bilməyən, sığorta əməliyyatlarına nəzarət etmək, istiqamətləndirmək və ya cəlb etmək üçün məcbur etmə, təzyiq və ya təsir göstərmə imkanı verən mövqeyə malik olan şəxslərin kateqoriyası**

1.Ümumi müddəalar

Sığorta vasitəçiliyi fəaliyyəti üzrə lisenziya verilməyən, hüquqi şəxs olan sığorta brokerinin səhmdarı və ya iştirakçısı ola bilməyən, sığorta əməliyyatlarına nəzarət etmək, istiqamətləndirmək və ya cəlb etmək üçün məcbur etmə, təzyiq və ya təsir göstərmə imkanı verən mövqeyə malik olan şəxslərin kateqoriyası “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 806-IVQD nömrəli Qanununun tətbiqi və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 dekabr tarixli 49 nömrəli Fərmanının 4.1.8-ci bəndinin icrası məqsədi ilə hazırlanmışdır və “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 83.2.5-ci və 83.5-ci maddələrində müəyyən edilmiş tələblərə uyğun gəlməyən şəxslərin kateqoriyasını müəyyən edir.

2. Fiziki şəxs sığorta agenti fəaliyyəti üzrə lisenziya verilməyən, sığorta əməliyyatlarına nəzarət etmək, istiqamətləndirmək və ya cəlb etmək üçün məcbur etmə, təzyiq və ya təsir göstərmə imkanı verən mövqeyə malik olan şəxslərin kateqoriyası

2.1. Sığorta əməliyyatlarına nəzarət etmək, istiqamətləndirmək və ya cəlb etmək üçün məcbur etmə, təzyiq və ya təsir göstərmə imkanı verən mövqeyə malik olan şəxslərin kateqoriyası aşağıdakı kimidir:

2.1.1. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 83.2.5-ci maddəsinin məqsədləri üçün sığorta agenti fəaliyyətinə münasibətdə:

2.1.1.1. sığortaçıların və təkrarsığortaçıların rəhbər işçiləri;

2.1.1.2. sığorta brokerləri;

2.1.1.3. dövlət orqanlarının, müəssisə və təşkilatlarının əməkdaşları.

### 3. Fiziki şəxs sığorta brokeri fəaliyyəti üzrə lisenziya verilməyən, sığorta əməliyyatlarına nəzarət etmək, istiqamətləndirmək və ya cəlb etmək üçün məcbur etmə, təzyiq və ya təsir göstərmə imkanı verən mövqeyə malik olan şəxslərin kateqoriyası

3.1. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 83.2.5-ci maddəsinin məqsədləri üçün sığorta brokeri fəaliyyətinə münasibətdə:

3.1.1. sığortaçıların və təkrarsığortaçıların səhmdarları və işçisləri;

3.1.2. sığorta agentləri;

3.1.3. müstəsna olaraq sığorta agenti fəaliyyəti ilə məşğul olan hüquqi şəxsin rəhbər işçisi;

3.1.4. dövlət orqanlarının, müəssisə və təşkilatlarının əməkdaşları.

### 4. Hüquqi şəxs olan sığorta brokerinin səhmdarı və ya iştirakçısı ola bilməyən, sığorta əməliyyatlarına nəzarət etmək, istiqamətləndirmək və ya cəlb etmək üçün məcbur etmə, təzyiq və ya təsir göstərmə imkanı verən mövqeyə malik olan şəxslərin kateqoriyası

4.1. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 83.5-ci maddəsinin məqsədləri üçün:

4.1.1. sığortaçıların və təkrarsığortaçıların səhmdarları və işçiləri;

4.1.2. dövlət orqanlarının, müəssisə və təşkilatlarının əməkdaşları.

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin*
*Kollegiyasının*
*"27" mart 2014-cü il tarixli*
*Q-08 №-li Qərarı ilə təsdiq*
*edilmişdir.*
***20 nömrəli əlavə***

## Fiziki şəxs olan sığorta agentinin fəaliyyəti barədə rüblük hesabatın forması

Sığorta agentinin adı, soyadı və atasının adı________________________________________________________________
Sığorta agentinin agent fəaliyyətinə verilmiş lisenziyanın nömrəsi və verildiyi tarix:
________________________________________________________________________

Hesabat dövrü ____________________________________________________
*(ilin əvvəlindən artan yekunla)*
Vasitəçilk xidməti göstərilən sığortaçının adı___________________________

| S.s | Sığorta sinfinin adı | Bağlanan sığorta müqavilələrinin sayı | | | Hesablanmış sığorta haqları | | | Hesablanmış komisyon muzdun məbləği | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən: | | Cəmi | o cümlədən: | | Cəmi | o cümlədən: | |
| | | | fiziki şəxslər üzrə | hüquqi şəxslər üzrə | | fiziki şəxslər üzrə | hüquqi şəxslər üzrə | | fiziki şəxslər üzrə | hüquqi şəxslər üzrə |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **Cəmi** | | | | | | | | | |

**Qeyd:** Sığorta agenti bu hesabatı vasitəçilik xidməti göstərdiyi hər bir sığortaçıya münasibətdə ayrılıqda tərtib etməlidir.